**7 – ci Xəzər Beynəlxalq Energetika və Alternativ Enerji Sərgisi**

Post-şou
09.06.2017

"Caspian Oil & Gas" sərgisi ilə eyni meydançada 31 may – 3 iyun tarixlərində 7-ci Xəzər Beynəlxalq Energetika və Alternativ Enerji "Caspian Power 2017" sərgisi keçirilir. "Caspian Power 2017" sərgisi Xəzər regionunda enerjidən səmərəli istifadə və bərpa olunan enerji sahəsində yeganə ixtisaslaşdırılmış tədbirdir. "Caspian Power" sərgisi Azərbaycan Respublikası Energetika Nazirliyi və Azərbaycan Respublikası Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən dəstəklənir. Sözügedən sərgi "ITE Group" şirkətinin energetika sahəsi üzrə keçirdiyi tədbirlər portfelinə daxildir və sənaye şirkətləri arasında özünü doğrulmağa müvəffəq olmuşdur.

Bu il "Caspian Power" sərgisində Azərbaycan, Almaniya, Belarus, Qazaxıstan, Rusiya və Türkiyənin energetika sahəsində texnologiya təchiz edən aparıcı şirkət iştirak edib. Sərginin sponsoru qismində "STP" şirkəti çıxış edib. Sərginin ekspozisiyası çərçivəsində su və istilik elektroenergetikası, atom energetikası, eləcə də nəzarət, ölçmə, idarəetmə və avtomatik nizamlama cihazları, habelə sənaye və kommunal-məişət energetikası, enerjiyə qənaət edən texnologiyalar, radio-tezlik kabelləri, sənaye avtomatlaşdırılması üçün kabellər və s. təqdim olunub.

"Caspian Power 2017" sərgisi elektrik enerjisi sənayesinin aparıcı təmsilçiləri ilə görüşmək, ən son texnoloji məhsullar və elektroenergetika sahəsinin inkişaf strategiyası ilə bağlı məlumat toplamaq, yeni səmərəli və qarşılıqlı faydalı əlaqələr qurmaq və mövcud əlaqələri genişləndirmək, habelə perspektiv müqavilələr imzalamaq üçün unikal imkan yaratdı.

Sərginin təşkilatçıları qismində "Iteca Caspian" və onun Böyük Britaniyalı tərəfdaşı "ITE Group" şirkətləri çıxış edirlər. Bu sərgi layihələri üzərində işə beynəlxalq şirkətləri Azərbaycanda təşkil olunan sərgilərə fəal şəkildə cəlb edən "ITE Group" şirkətinin tərəfdaşlar şəbəkəsi, o cümlədən "ITE London", "ITE Moscow" (Russiya), "EUF" (Türkiyə), "GIMA" (Almaniya), "ITE China" (Çin), "Caspian Event Management" (BƏƏ), "ITE Poland" və "ITE Malaysia" (Malayziya) şirkətləri cəlb olunublar. "ITE Group" şirkəti beynəlxalq şirkətləri Azərbaycan sərgisində iştiraka fəal surətdə cəlb edirlər.

Ənənəvi olaraq, təşkilatçılar sərgidəki fəaliyyətə yaradıcı şəkildə yanaşan və öz ekspozisiyaları, eləcə də fəal işi ilə seçilən sponsor, tərəfdaş və iştirakçıları fəxri sertifikatlarla təltif etdilər.

Beləliklə, aşağıdakı nominasiyalar üzrə fəxri sertifikatlara bu şirkətlər layiq görüldü:

"Ən yaxşı stend dizaynı" – AKSA power generation
"Ən yaxşı korporativ üslub" – AREA
"Ən yaxşı şirkət təqdimatı" -Baku Cable Goknur

2018-ci ildə sərgilər 5-8 iyun tarixlərində Bakı Ekspo Mərkəzində keçiriləcək.
**#CaspianPower**

***Rəylər***

Əlaqə: Svetlana Hacıyeva
Tel.: +994 12 404 10 08; Faks: +994 12 4041001;
E-mail: prmanager@iteca.az; web: www.caspianpower.az

**Vyaçeslav Lebedev, "Energomera" şirkətinin sərgi və seminarlar bölməsinin rəhbəri**

"Bu tədbirdə hər il iştirak etməyimiz bizə öz yeni məhsullarımızı təqdim etmək imkanı verir. Biz gələcəkdə də Bakıda keçiriləcək sərgilərdə iştirak etmək niyyətindəyik. Bu sərgi öz miqyası, infrastrukturu ilə bizi qane edir, Bakıdan olan tərəfdaşlarla görüşlər keçirməyimizə imkan verir və yeni əlaqələr qurmağa şərait yaradır".

**Rüstəm Qasımov, "ABB" şirkətinin icraçı direktoru**

"Sərgidə on beş illik iştirak yerli bazara daxil olmaq istəyən şirkət üçün layiqli qiymətdir. Burada biz öz sifarişçi və tərəfdaşlarımız ilə görüşlər keçiririk".

Əlaqə: Svetlana Hacıyeva
Tel.: +994 12 404 10 08; Faks: +994 12 4041001;
E-mail: prmanager@iteca.az; web: www.caspianpower.az